https://m.cebhe.info/quotdoumlvlet-sirketlerinde-korporativ-idareetme-beynelxalq-tecruumlbequot-moumlvzusunda-seminar-keccedilirilib-175669



# "Dövlət şirkətlərində korporativ idarəetmə: Beynəlxalq təcrübə" mövzusunda seminar keçirilib

**Noyabrın 22-də Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu jurnalistlər üçün seminar təşkil edib.**

Seminarın əsas müzakirə mövzusu "Dövlət şirkətlərində korporativ idarəetmə: Beynəlxalq təcrübə" olub.

**Cebhe.info** xəbər verir ki, seminarı giriş sözü ilə Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti Sabit Bağırov açıb. O bildirib ki, Dünya Bankının hazırladığı sonuncu hesabatlardan biri Azərbaycandakı dövlət müəssisələrinə həsr edilib: "Dünya Bankı dövlət müəssisələrində idarəçilik, səmərəliliyin səviyyəsini araşdırıb və müəyyən tövsiyələrlə çıxış edib. Təbii ki, bu tövsiyələr Azərbaycan hökumətinin sifarişi ilə hazırlanıb".

Sabit Bağırov layihə çərçivəsində jurnalistlər üçün növbəti seminarın təşkil olunacağını da diqqətə çatdırıb.

O qeyd edib ki, yerli ekspertlər Azərbaycanın böyük dövlət müəssisələrini nəzərdən keçirəcək: "Bu ekspertlər həmin müəssisələrin dövlət büdcəsinə nə dərəcədə böyük yük olaraq qalması, eyni zamanda korporativ idarəetmə üzrə müəyyən təkliflər hazırlayacaqlar. SOCAR və onun

tərkibində olan "Azəriqaz", "Azərenerji", eləcə də Azərbaycan Dəmir Yolları QSC, AZAL, "Azəsu" ASC və digər bu kimi böyük dövlət şirkətləri var ki, dövlət büdcəsinə divident vermək əvəzinə dotasiyalar alırlar. Bu mühüm layihənin sonunda müəyyən tövsiyələrlə çıxış edəcəyik və aidiyyəti dövlət qurumlarına təqdim edəcəyik".

Seminarı daha sonra ekspert İrina Gordeladze davam etdirib. O bildirib ki, dövlət şirkətlərində korporativ idarəetmə bütün dünyada çox aktual mövzudur: **"Korporativ idarəetmə vasitəsilə həm idarəçilik həyata keçirilir, həm də nəzarət kampaniyaları. Bütün şirkətlər üçün həm idarəetmə, həm də nəzarət lazımdır. Korporativ idarəetmə üç oyunçu var, səhmdarlar, rəhbərlik və müşahidə şurası.**

**Səhmdarlar menecerlərə kapital təqdim edirlər ki, onlar bu kapitalı daha da artırsınlar. Menecerlər bu kapitaldan istifadə edirlər, amma gərək onlar səhmdarlar qarşısında hesabat versinlər ki, bu kapitaldan necə istifadə ediblər. Səhmdarlar müşahidə şurasını təyin edirlər ki, bu şura menecment üzərində nəzarəti həyata keçirsin. Hər üç tərəfin öz maraqları var. Bir çox hallarda bu maraqlar ziddiyyət təşkil edir. Səhmdarlar şirkətin gəlirliliyinin artmasına, menecerlər isə öz qazanclarının, bonuslarının artmasında maraqlıdırlar. Kiçik paya sahib olan səhmdarlar və böyük paya sahib olan səhmdarlar arasında da fərqli maraqlar ola bilər. Eyni zamanda direktorlar şurasının üzvləri arasında da fərli maraqlar ola bilər. Korporativ idarəetmənin məqsədi ondan ibarətdir ki, bütün bu fərqli maraqları tənzimləsin. Yəni toqquşmalar mümkün qədər yumşaq olsun. Klassik korporativ idarəetmə sistemində mütləq hesabatlılıq, ədalətlilik, şəffaflıq və məsuliyyət olmalıdır".**

**Yeganə Oqtayqızı**
**Cebhe.info**